SƏYYARƏ MƏMMƏDLİ

# *Yalnız qələm dözür ağırlığıma*

«VEKTOR» Nəşrlər Evi
Bakı/Azərbaycan – 2014

***

Bu gün də oxuduqca
əsrlərin,
illərin o üzündən
SÖZün cəzalanmaq ,
şaqqalanmaq,
soyulmaq,
döyülmək "səsi" gəlir.
Hələbdə "soyuldu"
Nəsiminin SÖZü.
Soyulduqca
bir SÖZün altında
başqa bir SÖZ göründü.
Soya – soya gördülər ki,
SÖZ nə qədər keçilməz,
nə qədər dərindi.
Bu dərinlikdən,

əsrlərin,
qərinələrin qatlarından
keçə - keçə
dupduru bulaq kimi
yenə üzə çıxdı SÖZ.
Önünü kəsən qaranlıqların,
bulanıq sulu sellərin gözünə
həmişə
şimşək kimi çaxdı SÖZ.